Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

**Poeziya ədəbiyyatın elə bir sahəsidir ki, onun təsir gücünü heç nə ilə müqayisə etmək olmaz. Deyərdik ki, şeir nəsrdən və publisistikadan daha çox insanlara təsir göstərir. Əlbəttə, xalq olaraq milli mənlik şüurumuzun formalaşmasında, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə almasında poeziyanın rolu böyükdür.**

# Müasir poeziyamız və gənc nəslin milli mənlik şüurunun inkişaf məsələləri...



Müasir Azərbaycan poeziyası qədim və zəngin ənənələrin kökləri üzərində formalaşıb. Heç şübhəsiz, bu poeziya yeni nəslin həyatında, bədii zövqünün yaranmasında müstəsna rol oynayır. Bu mənada gənc nəslin milli mənlik şüurunun formalaşmasında, vətənpərvərlik tərbiyəsinin inkişafında çağdaş poeziyanın yeri xüsusidir.

Gənc nəslin milli mənlik şürunun yetişməsi, onlarda vətənpərvərlik hisslərinin tərbiyəsi hər zaman cəmiyyətimizi, xalqımızı, dövlətimizi dərindən düşündürüb. Onlar qədər də bu barədə qələm adamları, şairlər düşünüb. Necə poeziya yaratsınlar ki, onlar vətənpərvərlik tərbiyəsinin parlaq səhifələrini təşkil etsin?

**Vətənpərvərlik poeziyası və gənc nəsil…**

Savaşlardan, döyüşlərdən alnıaçıq, üzüağ, qalib çıxan Azərbaycan, tarixlərə neçə-neçə zəfərlər yazan xalqımızın qəhrəmanlıq dastanını dünən də, bu gün də məhz şairlər yazıb. Bu gün Azərbaycan ədəbiyyatında vətənpərvərlik ruhunda şeirlər, əsərlər yazmayan şair tapmaq çətindir. Belə bir şair yoxdur. Araşdırmalarımız göstərir ki, həm yeni nəsil, həm də ustad şairlərimiz gənclərimizin vətənpərvərlik ruhunda yetişdirilməsi üçün gözəl poeziya nümunələri yaradıblar. Bu gün xalq şairi Nəriman Həsənzadənin, Barat Vüsalın, Ramiz Qusarçaylının, Musa Ələkbərlinin, Ramiz Duyğunun, İsmayıl İmanzadənin və başqa şairlərimizin poeziyasından vətənpərvərlik ruhu geniş şəkildə aşılanır. Ədəbiyyatşünaslar qeyd edirlər ki, müasir Azərbaycan şairlərinin yaradıcılığının gənclərin vətənpərvərlik tərbiyəsində rolu əvəzsizdir. 2016-cı ilə qədər də, ondan sonra da çox unikal vətənpərvərlik şeirləri yazıldığını deyən ədəbiyyatşünas ekspertlərin sözlərinə görə, o şeirlər Qarabağın azad edilməsində gənc nəslə böyük ruh verib.

**"Vətənpərvərlik ruhunda yazılmış şeirlər, poemalar…"**

Ədəbiyyatşünas Leyla Məmmədəliyeva bizimlə söhbətində bildirdi ki, Azərbaycan poeziyası tarixən insanlarda vətənpərvərlik ruhunun inkişafına təkan verib. O bildirdi ki, bütün dövrlərdə, o cümlədən də XX əsrdə və içində yaşadığımız XXI yüzillikdə poeziya cəmiyyətin aparıcı qüvvəsidir. "Müasir Azərbaycan poeziyasının gənc nəsilin vətənpərvərlik ruhunda tərbiyə edilməsində rolu danılmazdır. Hesab edirəm ki, müstəqil dövründə yaranan poeziyada həm xalqımızın ağrıacıları, Qarabağ zəfəri geniş şəkildə tərənnüm edilib. 27 sentyabra qədər də, ondan sonra da çox maraqlı vətənpərvərlik şeirləri yaranıb. Ümumiyyətlə, 2016-cı ildə aprel zəfərinin qazanılmasına da şairlərimizin şeirləri böyük ruh verib. Vətənpərvərlik ruhunda yazılmış şeirlər, poemalar, hətta seyr etdikləri tamaşa və filmlər də gənclərdə milli mənlik və vətənpərvərlik hisslərini tərbiyə edir, bu ruhda tərbiyə almasında mühüm rol oynayır. Bizim şairlərin yaradıcılığına nəzər salan hər bir poeziyasevər vətənpərvərlik ruhunda yazılan şeir və poemalardan ruhdur".

Ədəbiyyatşünas deyir ki, müstəqillik dövündə yaranan poziyada Məmməd Araz, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Məmməd Aslan və başqa şairlərin xüsusi yeri var. "Bu gün həyatda olmayan, lakin özlərindən sonra böyük bir irs qoyan böyük şairlərimizin bu sahədə rolunu da qeyd etməliyik. Məmməd Arazın "Qalx ayağa, Azərbaycan" hayqırtıları gəncliyimizi torpaqlarımızı düşmən işğalından azad etməyə çağırırdı. Eləcə də, Zəlimxan Yaqubun, Məmməd Aslanın və başqa şairlərimizin şeirlərində torpaqlarımızın azad ediləcəyinə böyük inam vardı. Bəxtiyar Vahabzadənin əsərləri milli şüurun və vətənpərvərliyin nümunələridir, yaradıcılığı gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz rol oynayır. Müasir dövrdə yazıb yaradan şairlərdən Ramiz Qusarçaylının "Azərbaycan Bayrağı" şeiri gəncliyin şüurunda bayraq, vətən, torpaq sevgisini daha da möhkəmləndirib. Bir zaman həsrətini çəkdiyimiz Şuşada indi Azərbaycan bayrağı dalğalanır. Azərbaycan boydadır şairin şeirləri. Bu, onun yüksək vətənpərvərlik və vətəndaşlıq poeziyasının qayəsidir.

Sənsən Azadlıq eşqim,
sənsən Hürr,- deyəcəyəm,
Ən son nəfəsimdə də
sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun
daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə
kölgən düşən torpağı
Azərbaycan Bayrağı !
Azərbaycan Bayrağı !"

**"Bütün hallarda qələbəyə gedən yollara..."**

Ekspertin sözlərinə görə, Azərbaycan ərazilərinin düşmən işğalından azad edilməsi istiqamətində aparılan təbliğat işində poeziyamızın, şairlərimizin əməyi danılmazdır. O, qeyd etdi ki, bu mövzuda danışarkən, vətənpərvər şeirlər müəllifi şair Barat Vüsalın poeziyasını da yada salmaq lazımdır. Barat Vüsalın vətənpərvərlik şeirləri də çox oxunaqlı və təsirlidir.

"Bu da aydın məsələdir ki, bizim şairlərin yazdıqları şeirlər əsasında bəstəkar mahnıları da yaranır. Vətənpərvərlik poeziyası, ədəbiyyatı, musiqisi genişlənir. Poeziyamız öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Bütün hallarda, qələbəyə gedən yollara işıq tutan amillərdən biri məhz müasir poeziyamız olub" - deyə ekspert qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**